

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 241 (23.403)

21 dekabr 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 20-də Sankt-Peterburq şəhərinə səfərə gəlib.

Sankt-Peterburq şəhərinin Pulkovo-1 hava limanında dövlətimizin başçısı İlham Əliyevi Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko, Sankt-Peterburq şəhəri hökumətinin üzvü, Xarici əlaqələr komitəsinin sədri Yevgeni Qriqoriyev, Leninqrad vilayətinin Xarici əlaqələr komitəsinin sədr müavini İnna Biqotskaya və digər rəsmi şəxslər qarşılayıblar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşüb.

Prezident İlham Əliyev Sankt-Peterburqda və Leninqrad vilayətində çox böyük Azərbaycan diasporu yaşadığını və fəaliyyət göstərdiyini, burada yaşayan azərbaycanlıların Rusiyanın çox dəyərli vətəndaşlar kimi həm Rusiyanın ümumi inkişafına töhfə vediklərini, həm də ki, tarixi Vətənlə əlaqə saxladıqlarını, gedib-gəldiklərini bildirib, bunun çox müsbət hal olduğunu deyib.

Dekabrın 20-də Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.



## Koreya Respublikasının Azərbaycandakı səfirliyinin müşaviri Naxçıvan Dövlət Universitetində olub



*Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin müşaviri Lee Jae Vunqun muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.*

Universitetin Cənubi Koreya Mərkəzi ilə tanışlıq zamanı məlumat verilib ki, 2012-2013-cü tədris ilindən etibarən Naxçıvan Dövlət Universitetində Koreya dilini öyrədən kurslar açılıb. Mərkəzin müasir informasiya texnologiyaları, Koreya dilində ensiklopediya, lüğət və digər məlumat nəşrləri ilə təmin olunması diqqətdə saxlanılır. Burada Koreyanın dövlət atributları, milli musiqi alətləri, eyni zamanda ölkənin tarixini, milli mədəniyyətini, ədəbiyyatını, ali təhsil strukturunu əks etdirən elmi-siyasi ədəbiyyatlar, elektron məlumat vasitələri toplanıb. Koreya Mərkəzində Cənubi Koreyanın əlamətdar tarixi günlərinə həsr olunmuş tədbirlər keçirilir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin müşaviri Lee Jae Vunqun ilə görüşüb. Seymur Talıbov qonağı salamlayaraq onu ali təhsil ocağında görməkdən məmnunluğunu bildirib.



Söhbət zamanı qonaq muxtar respublikada Koreya dilinə olan yüksək marağı nəzərə alaraq bu dil üzrə TOPİC imtahanlarının Bakıya getmədən məhz Naxçıvanda keçirilməsini təklif edib. Naxçıvan Dövlət Universitetinin prorektoru Seymur Talıbov təklifi yüksək dəyərləndirib, Koreya milli mədəniyyətinin, incəsənətinin təbliği istiqamətində görüləcək işləri məqsədəuyğun hesab edib və Koreya günü keçirilməsi ilə bağlı təklifini irəli sürüb.

Görüşdə qarşılıqlı fikir mübadiləsi aparılıb.

**Səadət ƏLİYEVA**

## Mükafatlandırma mərasimi keçirilib



*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən 2019-cu ildə daxili bazarda aparılan monitorinqlər üzrə iqtisadi aktiv ailə təsərrüfatı nümayəndələri və ailə təsərrüfatı məhsullarının satışını həyata keçirən təsərrüfat subyektləri müəyyənləşdirilib. Naxçıvan Biznes Mərkəzində onların mükafatlandırılması münasibətlə keçirilən tədbiri giriş sözü ilə agentliyin direktoru Bəxtiyar İsmayılov açıb.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Vergilər naziri, III dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev çıxış edərək bildirib ki, güzəştli kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, arıçılıq təsərrüfatlarının müxtəlif dərman preparatları ilə pulsuz təmin edilməsi, istehsal olunmuş məhsulların muxtar respublikamızın iri ticarət obyektlərində satışı üçün əlverişli şəraitin yaradılması, ənənə halını almış festivalların keçirilməsi və bu tədbirlərdə həmin məhsulların tanıtımı ailə təsərrüfatlarının inkişafına öz müsbət təsirini göstərib.

Qeyd olunub ki, dövlət qayğısından yararlanan hər bir ailə təsərrüfatı bu sahəyə diqqəti artırmalı, öz gəlirlərinin çoxalması baxımından işlərini düzgün qurmalıdır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova çıxışında bildirib ki, keçirilən təlimlərə yaradıcılığa və istehsala meyilli 250-dən çox ailə təsərrüfatı, sahibkarlıqla məşğul olan qadınlar cəlb olunub və yekunda maraqlı biznes-planı ilə fərqlənən qadınlara sərmayə kapitalı verilib. Bu da onlara göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin direktoru Bəxtiyar İsmayılov çıxışında qeyd edib ki, ötən dövrdə ailə təsərrüfatlarının digər satış bazarlarına çıxış imkanları təşviq olunub, Bakı və Gəncə şəhərlərində “Naxçıvan məhsulları” əmtəə nişanı ilə fəaliyyət göstərən 4 yeni mağaza yaradılıb.

Təkcə 2019-cu il ərzində ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət tədbirləri çərçivəsində məhsullardan 581 halda nümunələr götürülərək laboratoriya sınaqları aparılıb. Mühüm bir layihə kimi ev şəraitində hazırlanan araq məhsullarının təhlükəsizlik və keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunlaşdırılması məqsədilə ölkəmizdə ilk dəfə olaraq məhz muxtar respublikamızda minifiltr qurğularından geniş istifadə edilib.

Diqqətə çatdırılıb ki, aparılan genişmiqyaslı tədbirlərin davamı kimi Vergilər Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən birgə xüsusi təşviq layihəsi icra olunmaqdadır. Layihə çərçivəsində monitorinqlər aparılıb və ən çox ailə təsərrüfatı məhsulları satan mağazaların, tədarük üzrə aktivlik göstərən ailə təsərrüfatları nümayəndələrinin qeydiyyatı və satış göstəriciləri üzrə reyestri hazırlanıb.

Tədbirdə ailə təsərrüfatı nümayəndələrindən Əbülfəz Əliyev, Cəmşid Həsənov, Şəfəq Ağayeva və Yaşar Həbibov çıxış edərək yaradılan əlverişli şəraitə, göstərilən diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlıq edibl ər.

Sonda adıçəkilən birgə layihə çərçivəsində müəyyənləşdirilən iqtisadi aktiv ailə təsərrüfatı nümayəndələri və ailə təsərrüfatı məhsullarının satışını həyata keçirən təsərrüfat subyektləri qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Nail ƏSGƏROV**

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin İnformasiya texnologiyaları ixtisasının IV kurs tələbələri ilə görüş keçirilib.*

## Tələbələrlə görüş



Görüşdə Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov çıxış edərək bildirib ki, əsas məqsədimiz gələcəkdə informasiya-kommunikasiya texnologiyaları sahəsində çalışacaq kadrların daha peşəkar yetişməsi, onların seçdikləri ixtisasların sirlərinə dərindən yiyələnmələridir. Nazirlikdə istehsalat təcrübəsində fəal iştirak edən və təhsil müəssisələrində yaxşı nəticələr göstərən tələbələr gələcəkdə işlə təmin olunmaq üçün nazirliyə müraciət edə bilərlər.

Diqqətə çatdırılıb ki, nazirliyin dəstəyi ilə mobil operatorlar tərəfindən yaxşı nəticələri olan səkkiz tələbəyə 2019-2020-ci tədris ilində aylıq 200 manat təqaüd verilməsi təmin edilib. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyi ilə Çin Xalq Respublikasının “Huawei” şirkəti tərəfindən “Gələcəyin İKT səhsindəki toxumları” adlı növbəti müsabiqə keçirilib və seçilən 7 tələbə həmin şirkətin Şenjen şəhərindəki təlim mərkəzində istehsalat təcrübəsinə göndərilib.

Həmçinin “Naxçıvan” Universitetində yaradılan İKT mərkəzində 3-cü ildir ki, təhsil müəssisələri ilə razılaşdırılmış qrafikə uyğun olaraq “Huawei”nin peşəkar mütəxəssisləri tərəfindən hamiliyə götürülmüş ixtisasların tələbələri üçün mühazirələr oxunur.

Qeyd edilib ki, mayın 8-də nazirliyin mütəxəssislərinin fəal iştirakı ilə “Naxçıvan” Universitetində “İdeyadan Biznesə” ümumrespublika startap müsabiqəsi təşkil edilib. Naxçıvan şəhəri üzrə ilk üç yerə layiq görülən komandalar ölkə paytaxtında keçirilən milli finalda iştirak ediblər.

Görüşdə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov, nazirliyin İqtisadiyyat və mühasibat uçotu şöbəsinin aparıcı məsləhətçisi Sahil Quliyev, nazirliyin Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsinin məsləhətçisi Rəfiqə Əmirova, tələbələrdən Aytən Seyidova və Musa Məhərrəmov çıxış ediblər.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**



# İqtisadiyyat

## 2019-cu ildə də xeyli sayda istehsal və xidmət sahələri yaradılıb

*Ölkəmizin müasirliyə doğru sürətli inkişafı insanların artan tələbatlarını ödəyə bilmək, mövcud resurslardan səmərəli istifadə etməklə əhalinin yaşayış səviyyəsini yüksəltmək vəzifəsini qarşıya qoyur. Bu mənada, Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın əsas amillərindən biri olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər regionun investisiya cazibədarlığının və ölkəmizin iqtisadi gücünün artırılmasında mühüm əhəmiyyətə malikdir. Bütün bunlar iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektoru üzrə ixrac potensialının artırılmasına muxtar respublikamızın verdiyi töhfələrdəndir.*

Ötən illərdəki kimi, yola salmaqda olduğumuz 2019-cu ildə də muxtar respublikada istifadəyə verilmiş yeni istehsal və xidmət sahələri bu istiqamətdə qazanılmış uğurlardan xəbər verir.

Naxçıvanda mövcud olan təbii sərvətlər və istehsal-əmək ehtiyatları burada sahibkarlar üçün geniş bazar imkanları yaradır. Belə imkanlardan və davamlı dövlət qayğısından bəhrələnən özəl sektor təmsilçiləri tərəfindən ötən dövr ərzində həyata keçirilən layihələr hesabına muxtar respublikamızda sənaye və kənd təsərrüfatı sahələrində sərmayə qoyuluşlarının həcmi artıb, yüzlərlə sayda məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi mümkün olub. Belə ki, hər il çox sayda yeni iş yerləri yaradılıb, əhali gəlirlərinin artması, demoqrafik göstəricilərin yaxşılaşması davamlı xarakter alıb. Bütün bunlar da, ümumilikdə, muxtar respublika iqtisadiyyatının cazibədarlığını müəyyən edən əsas amillərdəndir. Diyarımızda sahibkarlara göstərilən qayğının nəticəsidir ki, son 24 il ərzində muxtar respublikada yüksək texnologiyalar əsasında maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayesi, eləcə də kənd təsərrüfatı təyinatlı çoxsaylı istehsal və xidmət sahələri yaradılıb. Bütün bunlar daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynamaqdadır.





Qeyd olunan uğurlar cari ildə də davam etdirilib və muxtar respublikada iqtisadi resurslardan səmərəli istifadə olunması üzrə mühüm layihələr reallaşdırılıb. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata əsasən 1 dekabr 2019-cu il tarixədək 60-dan artıq yeni istehsal və xidmət sahələri yaradılıb. Əsasən, dövlət maliyyə dəstəyi ilə yaradılan bu sahibkarlıq obyektlərində 200-dən artıq yeni iş yeri də açılıb. 40-dan artıq ailə təsərrüfatının da sıralarında yer aldığı bu yeni istehsal və xidmət sahələrində ərzaq məhsullarının istehsalı, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, süd emalı, balın qablaşdırılması, yabanı dərman bitkilərinin tədarükü, meyvə araqlarının və bitki cövhərlərinin istehsalı, həmçinin soyuducu anbarların yaradılması kimi müxtəlifprofilli biznes subyektləri görmək olar. Paytaxt Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın, demək olar ki, bütün rayonlarında, eləcə də ucqar dağ və sərhəd kəndlərində yaradılmış bir çox belə sahibkarlıq sahələri və ailə təsərrüfatları əhalinin, xüsusən də qadınların məşğulluğuna mühüm töhfə verir.

Naxçıvan şəhərində fəaliyyət göstərən "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış yeni istehsal sahəsində daha 50 nəfər üçün iş yeri açılıb. Məhsulları təkcə daxili bazarda deyil, xarici ölkələrdə də özünə alıcı tapan bu müəssisənin istehsal gücünün daha da artırılması biznes ideyası baxımından da maraqlıdır.

Naxçıvanın yüksəkkeyfiyyətli heyvandarlıq məhsulları tarixən böyük tələblə qarşılanıb. Bu gün də naxçıvanlı fermerlərin istehsal etdikləri ət və süd məhsulları ilboyu özünə alıcı tapmaqdadır. Şərur rayonunun işgüzar insanları isə sahib olduqları bərəkətli torpaqlardan bol məhsul əldə etmək üçün indi ən yaxşı imkanlara malikdirlər. Bu il rayonun Arbatan, Dəmirçi, Kosacan, Kürkənd, Muğanlı, Püsyan və digər kəndlərində dövlət maliyyə dəstəyi ilə yaradılmış yeni sahibkarlıq subyektlərində yüzlərlə baş iri və xırdabuynuzlu heyvanın alınması və sayının daha da artırılması üçün işlər görülməkdədir. Ötən dövrdə həyata keçirilən tədbirlərin nəticəsi isə göz qabağındadır. 20-25 il əvvəl təzə ətin qeyri-qanuni yolla və həddindən artıq baha qiymətə satıldığı, xaricdən mənşəyi məlum olmayan donmuş ətin idxal olunduğu Naxçıvanda indi əhaliyə hər quzunun ətini bəyəndirmək çətindir. Göründüyü kimi, Allahın bəxş etdiyi təmiz su, hava və torpaq işgüzarlıq və zəhmətlə əhatə olunduqda istənilən işin qaymağını dadmaq mümkündür.



Soyuducu anbarlar əhalinin ilboyu təzə ərzaq məhsulları ilə münasib qiymətlərlə təmin olunmasında və daxili bazarda tarazlı qiymətlərin saxlanılmasında mühüm rol oynayan istehsal infrastrukturudur. Ötən dövrdə yaradılmış 16 min tona yaxın tutumu olan 37 soyuducu anbara tədarük edilən məhsullar hesabına marketlərimizin rəfləri həmişə dolu olub. Cari ildə də Şərur rayonunun Yengicə, Çomaxtur, Cəlilkənd, Çərçiboğan, Zeyvə və Danyeri kəndlərindəki sahibkarlara məxsus və ümumi tutumu 2200 tona yaxın olan daha 6 soyuducu anbarın özəl investisiya hesabına yaradılması və genişləndirilməsi də gələcəkdə bu sahədə qarşıya qoyulmuş vəzifələrin həllinə öz töhfəsini verəcək.

Yüksəkkeyfiyyətli bal və digər arıçılıq məhsulları Naxçıvanda bir çox ailə təsərrüfatçısının səmərəli məşğulluq sahəsi və yaxşı gəlir mənbəyidir. Bu il də Naxçıvanda dövlət maliyyə dəstəyi ilə arıçılıq təsərrüfatlarının sayının artırılması və işinin genişləndirilməsi davam etdirilib. Muxtar respublikanın müxtəlif rayonlarında 7 arıçılıq təsərrüfatına göstərilən dövlət maliyyə dəstəyi yüzlərlə yeni arı ailəsinin alınması və balın qablaşdırılması üçün onlara ciddi bir stimul olub. Naxçıvanın dağ və dağətəyi bölgələrindəki gül-çiçəyin nektarından hasilə gələn təmiz bal isə həm doğma diyarımızda, həm də onun hüdudlarından kənarda minlərlə ailənin süfrəsini bəzəyir.

Dünya təcrübəsinə əsasən biznesə gedən yolda əldə olunan uğurlar təkcə bazarın tələbatı ilə deyil, həm də dövlət və sosial maraqların ödənilməsi ilə mümkündür. Muxtar respublikamızda sahibkarlığın inkişafı yoluna nəzər saldıqda, görürük ki, ötən dövr ərzində dövlət-sahibkar münasibətlərində etimadın dərinləşməsi ilə xeyli sayda uğurlar qazanılıb, reallaşdırılan layihələrin də sayı artıb. Yeni yaradılan sahibkarlıq sahələri isə bu mövqe üzərində qurulmaqla öz yollarını davam etdirirlər.

**Əli CABBAROV**

## "Ailə təsərrüfatları ili" iqtisadi uğurları ilə yaddaqalan oldu



***Son illər ərzində muxtar diyarımızda yüzlərlə yeni ailə təsərrüfatları formalaşıb, bu təsərrüfatların hərtərəfli fəaliyyəti üçün məqsədyönlü tədbirlər həyata keçirilib və keçirilməkdədir.***

Bəhs olunan dövrdə həm də ailə təsərrüfatlarının biznes planları tərtib edilib, təsərrüfat sahiblərinə güzəştli şərtlərlə kreditlər verilib, istehsal olunan məhsulların satışı üçün əlverişli şərait yaradılıb. Dövlət dəstəyi nəticəsində ailə təsərrüfatları məhsullarının qablaşdırma və dizaynlarının tərtib edilməsi, onların taralarla təchizatı məhsulun bazara və istehlakçılara marketinq qaydalarına uyğun olaraq çatdırılmasına imkan verir.

2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər planlarının təsdiq olunması ailə təsərrüfatlarının fəaliyyəti üçün daha geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi məqsədilə aqrar bölmədə ötən illər ərzində aparılan köklü islahatlar bu sahənin sürətli inkişafına şərait yaradıb, bir çox dövlət proqramları qəbul edilərək uğurla icra olunub və aqrar sahənin inkişafına öz töhfəsini verib.

Aqrar sektorda tətbiq edilən güzəştlər və subsidiyalar bu sahənin inkişafını stimullaşdırıb, istehlak bazarının sabitləşməsinə nail olunub. Son illərdə dövlət maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 321 heyvandarlıq, 86 quşçuluq, 14 balıqçılıq, 124 arıçılıq, 67 bağçılıq, 10 üzümçülük təsərrüfatının yaradılması muxtar respublikada ailə təsərrüfatlarının inkişafına, daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına geniş imkanlar açıb.

2019-cu ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 84 ailə təsərrüfatına 753 min 100 manat dövlət maliyyə dəstəyi göstərilməsi, 315 ailə təsərrüfatının 12 min 800-dən çox tara ilə təmin olunması ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar yaradıb.

Muxtar respublikamızda ailə təsərrüfatları çoxprofilli fəaliyyət sahəsinə malikdir. Ötən dövrdə onların işinin daha da genişləndirilməsi məqsədilə maarifləndirici tədbirlər aparılıb, nümunəvi ailə təsərrüfatlarının iş təcrübəsinin muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən ailə təsərrüfatlarına aşılanması həyata keçirilib.

Bu tədbirlərin davamı olaraq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması muxtar respublikada bu təsərrüfatlarda istehsal olunan məhsulların çeşidinin və rəqabətqabiliyyətliliyinin stimullaşdırılması ilə yanaşı, istehlakçıların ekoloji təmiz məhsullarla təmin edilməsində mühüm rol oynayıb.

Ötən dövr ərzində ailə təsərrüfatlarında istehsal edilən məhsulların keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması, sertifikatlaşdırılması və markalanması istiqamətində aidiyyəti təşkilatlar tərəfindən lazımi köməkliklər göstərilib. Həmçinin ailə təsərrüfatları məhsullarının tanıdılması məqsədilə ötən dövrdə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi salonunda 45 ailə təsərrüfatının 108 növdə 140 çeşiddə məhsulunun nümayişi təmin olunub.

Ailə təsərrüfatları məhsullarının satışı üçün əlverişli şərait yaradılıb, muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və rayon mərkəzlərində "Ailə təsərrüfatı məhsulları" festivalları təşkil olunub. Bu da təsərrüfat sahiblərinin istehsal etdikləri məhsulların satışına öz müsbət təsirini göstərib.

Göründüyü kimi, iqtisadiyyatın bu vacib sahəsinin inkişafı üçün həyata keçirilən tədbirlər muxtar respublikada ailə təsərrüfatlarının sayının getdikcə artmasına şərait yaradıb. Bu isə əmək resurslarının səmərəli məşğulluq imkanlarını artırmaqla bərabər, iqtisadiyyatda mühüm faktorlardan olan ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına təkan verir. Nəticə etibarilə muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, təsərrüfatların birgə koordinasiyasının təmin edilməsi və onların potensialından səmərəli istifadə olunması ailə təsərrüfatının vahid birliyinin formalaşdırılmasını zəruri edib. Muxtar respublikamızda Ailə Təsərrüfatları İctimai Birliyinin yaradılmasında məqsəd diyarımızda bu mütərəqqi təsərrüfat forması ilə məşğul olan şəxslərə informasiya verilməsi, maddi dəstək göstərilməsi, onların potensialından cəmiyyətin iqtisadi həyatında daha səmərəli istifadə olunmasını təşkil etməkdən ibarətdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Kəhrizlərin bərpası davam etdirilir

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən müasir suvarma sistemlərinin quraşdırılması, su itkisinin qarşısının alınması istiqamətində işlər noyabr ayında da davam etdirilmişdir. Belə ki, ötən ay muxtar respublikada su istifadəçilərinə 23 milyon kubmetr su verilmiş, bunun müqabilində 18 min 781 hektar torpaq sahəsi suvarılmışdır. 4,5 kilometr beton və torpaq kanal, 27 kilometr ara arxlar və 2 kilometr kollektor lildən təmizlənmiş, 1,2 kilometrlik açıq drenaj kanalı qazılmışdır. Həmçinin 1,5 hektar sahə hamarlanaraq əkinəyararlı hala salınmış, 40 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi azaldılaraq şoranlaşmanın qarşısı alınmışdır.

Ötən dövrdə yaşıllıq sahələrinin damcı üsulu ilə suvarılmasını təmin etmək üçün 11 kilometr suvarma xətti çəkilmişdir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 64 subartezian quyusunda təmir işləri aparılmış, yeni subartezian quyusu qazılmış, 5 kəhrizin bərpası davam etdirilmişdir.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Şərur rayonunun Cəlilkəndində içməli su xəttinin tikintisinə başlanılmış, 3 kilometr su xətti çəkilmişdir. Şərur və Ordubad rayonlarında sutəmizləyici qurğunun, Babək rayonunun Nehrəm kəndində içməli su xəttinin quraşdırılması davam etdirilmiş, 3,2 kilometr su xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*Müstəqillik illərində ölkəmizdə istər demokratiya, istərsə də vətəndaş cəmiyyəti quruculuğu sahəsində böyük işlər görülüb, Azərbaycan demokratik inkişaf yolunda irəliləyən aparıcı dövlətlər sırasında mühüm yerini tutub. Bu müsbət xüsusiyyətlər ötən müddət ərzində keçirilən bütün seçkilərdə özünü açıq şəkildə büruzə verib. Artıq növbəti bələdiyyə seçkilərinə çox az vaxt qalır. Dekabrın 23-də ölkəmizdə bu seçkilərin də demokratik prinsiplər əsasında, obyektiv və şəffaf şəkildə keçirilməsi üçün muxtar respublikamızda da lazımi işlər görülüb. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından aldığımız məlumata görə, muxtar respublika üzrə 170 bələdiyyəyə 1452 nəfər üzvün seçilməsi nəzərdə tutulur. Qeydə alınmış namizədlərin ümumi sayı 2122 nəfərdir ki, bunlardan 535-i ali, 1587-si isə orta təhsilli, 306-sı qadındır. Siyasi partiya mənsubiyyətinə görə namizədlərdən 1477-si Yeni Azərbaycan Partiyasının üzvü, 475 nəfəri bitərəfdir, qalanları isə digər partiyalar tərəfindən irəli sürülüb. Bəs ölkəmizdə bələdiyyə institutu, onun hüquqi bazası necə formalaşıb, ötən illər ərzində bu sahədə hansı yeniliklər tətbiq olunub? Bu və digər suallarımızı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı Xəyal Eyvazov cavablandırır.*

## Növbəti seçkilər yerli özünüidarəetmənin daha da təkmilləşməsinə töhfəsini verəcək




***– Yerli özünüidarəetmə orqanı sayılan bələdiyyələrin yaradılması əhalinin sosial, mədəni və məişət problemlərinin kompleks şəkildə həllinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi baxımından zəruridir. Xəyal müəllim, istərdim elə ilk olaraq ölkəmizdə sadalanan xarakterik xüsusiyyətləri özündə ehtiva edən bələdiyyə institutunun yaranma tarixi barədə oxucularımıza qısa məlumat verəsiniz.***

– Tariximizin müxtəlif dövrlərində yerli seçkili idarəetmə qurumları mövcud olsa da, ölkəmiz əsl demokratik dəyərlərə malik bələdiyyələri yaratmaq imkanını dövlət müstəqilliyi bərpa edildikdən sonra qazanıb. Bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə olaraq məhz ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapıb.

Yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək imkanı verir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilir ki, yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr seçkilər əsasında yaradılır, statusunun əsasları konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

Bu qurum ölkəmizdə 1999-cu ilin dekabrında dövlətçilik tarixinə mühüm hadisə kimi daxil olan ilk bələdiyyə seçkilərinin keçirilməsi ilə formalaşmağa başladı. Sonra isə bu istiqamətdə fəaliyyəti tənzimləyən normativ aktlar qəbul edildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bələdiyyələrin yaradılmasının əhəmiyyətini nəzərə alaraq deyib: ***"Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratiya prosesinin böyük bir hissəsi, böyük bir qoludur. Demokratik, hüquqi dövlət, dünyəvi dövlət qurmaq prosesinin bir hissəsi, bir sahəsidir. Biz Azərbaycanda tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir".***

***– Sizin də qeyd etdiyiniz kimi, ölkəmizdə bütün sahələrin, eləcə də bələdiyyə institutunun yaradılması, formalaşması istiqamətində görülən işlərin təməlində də məhz görkəmli dövlət xadimi Heydər Əliyev şəxsiyyəti, Onun atdığı müterəqqi addımlar dayanır. Dahi şəxsiyyətin yolunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə də bələdiyyələrin təkmilləşdirilməsi sahəsində ötən illər ərzində bir sıra işlər görülüb. Bu barədə nə deyə bilərsiniz?***

– Yarandığı dövrdən ötən 20 il ərzində yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilib, mükəmməl qanunvericilik bazası yaradılıb, müasir bələdiyyələr formalaşıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bələdiyyələrin səlahiyyətlərinin və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilib və bu tədbirlər hazırda uğurla davam etdirilməkdədir. Nəticədə, böyük inkişaf yolunu keçən bələdiyyələr vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində yaxından iştirak edirlər.

Ölkəmizdə olduğu kimi, muxtar respublikada da bələdiyyələr hərtərəfli qayğı ilə əhatə olunub. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə bələdiyyələrin inkişafı üçün zəruri, hüquqi, təşkilati tədbirlər görülüb və yerli özünüidarəetmə hüququnu həyata keçirməkdə əhaliyə hərtərəfli köməklik göstərilib. Aparılan genişmiqyaslı abadlıq və quruculuq tədbirləri bələdiyyələrin fəaliyyətini də xeyli asanlaşdırıb, onlar müasir iş şəraiti ilə təmin olunublar. Ötən müddət ərzində muxtar respublikamızda fəaliyyət göstərən yerli özünüidarə orqanları bələdiyyə idarəçiliyi sahəsində xeyli təcrübə qazanıblar və onların cəmiyyətin həyatındakı rolu ilbəil artır. Bu da bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində daha yaxından iştirakına və abadlıq-quruculuq işlərində fəallıq nümayiş etdirmələrinə öz müsbət təsirini göstərməkdədir.

***– Xəyal müəllim, bildiyimiz kimi, müstəqillik illərində ölkəmizdə yerli özünüidarəetmə sisteminin formalaşdırılması üçün kifayət qədər hüquqi baza yaradılıb. İlk konstitusiyanın qəbulundan bələdiyyələrə seçkilər keçirilənədək və ondan sonra da bələdiyyələrin formalaşması, fəaliyyəti və inkişafının müxtəlif aspektlərini əhatə edən çoxlu sayda qanunvericilik aktları qəbul edilib. Ümumiyyətlə, qanunvericilikdə bələdiyyələrin statusu, fəaliyyəti və səlahiyyətləri barədə hansı müddəalar nəzərdə tutulub?***

– "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyən edib. Bələdiyyə qanunla nəzərdə tutulmuş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Onun öz mülkiyyəti və yerli büdcəsi olur və bələdiyyə Azərbaycan Respublikası Konstitusiyası və qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər. Vətəndaşlar yerli özünüidarənin həm bilavasitə, həm də öz nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ vardır. Yerli özünüidarə vətəndaşların fəaliyyətinin elə bir sistemidir ki, həmin sistem qanun çərçivəsində onlara öz mənafeləri naminə yerli əhəmiyyətli məsələləri həll etmək imkanı verir. Bu hüququ qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilən bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar, bələdiyyələr və vətəndaşlar yığıncaqlar vasitəsilə həyata keçirirlər. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunur ki, bələdiyyə qulluğu Azərbaycan Respublikası vətəndaşları üçün eyni dərəcədə müyəssərdir. Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları bələdiyyələrin inkişafı üçün zəruri, hüquqi, təşkilati və maddi maliyyə şəraiti yaradır və yerli özünüidarə hüququnu həyata keçirməkdə əhaliyə kömək göstərirlər. Azərbaycan Respublikası vətəndaşları yaşadıqları ərazidə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər vasitəsilə və digər formalarda həyata keçirirlər. Bələdiyyələrin strukturu qanuna və bələdiyyələrin nizamnamələrinə uyğun müəyyənləşdirilir.

Bələdiyyə üzvü bələdiyyə seçkilərində seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir. Onların səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir və təminatları qanunla və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir. Bələdiyyə üzvü seçilmək haqqında vəsiqə seçkilərin nəticələri elan olunduqdan sonrakı 5 gün müddətində dairə seçki komissiyası tərəfindən verilir. "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının Qanununda onun fəaliyyətinin əsas təminatları müəyyən edilibdir. Qanunda göstərilir ki, bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz və səmərəli həyata keçirilməsinə, hüquqlarının qorunmasına dövlət tərəfindən təminat verilir.

Bələdiyyələr Azərbaycan Respublikasının Konstitusiyasına, Seçki Məcəlləsinə, "Bələdiyyələrin statusu haqqında" qanuna və özlərinin nizamnamələrinə əsasən təşkil edilən, bələdiyyə üzvlərindən ibarət olan seçkili yerli özünüidarə orqanlarıdır. Onlar hüquqi şəxsdirlər, möhür və ştampları, bankda hesabları olur. Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ vardır. Qanuna görə vətəndaşlar yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər vasitəsilə və digər formalarda həyata keçirirlər. Bundan əlavə, vətəndaşlar yerli özünüidarəni həm bilavasitə, həm də öz nümayəndələri vasitəsilə həyata keçirə bilərlər. Bələdiyyələrə seçkilər vətəndaşların qanunla müəyyənləşdirilmiş seçki hüquqları təmin edilməklə, ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi, gizli səsvermə yolu ilə həyata keçirilir. Bələdiyyələrə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun keçirilir. Vətəndaşların yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ onların yerli idarəçilikdə iştirakını təmin edir.

***– Bildiyimiz kimi, artıq növbəti bələdiyyə seçkilərinin keçirilməsinə çox az vaxt qalır. Ötən illərin təcrübəsi, son dövrlərdə bu sahədə atılan addımlar, aparılan maarifləndirmə tədbirləri, seçki keçiriləcək yerlərdə təhlükəsizliyin tam təmin edilməsi, veb-kameraların quraşdırılması belə deməyə əsas verir ki, budəfəki seçki prosesi də tam şəffaf və obyektiv şəkildə baş tutacaq. Təbii ki, bu istiqamətdə görülən işlər Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə bələdiyyə seçkilərinin təşkili və keçirilməsi qaydalarına uyğun müəyyən edilir. Bu qaydalarda daha nələr nəzərdə tutulur?***

– Qeyd etdiyiniz kimi, Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə bələdiyyə seçkilərinin təşkili və keçirilməsinin müvafiq qaydaları müəyyən edilib. Belə ki, həmin məcəllənin "Bələdiyyə seçkilərinin əsasları" adlanan 210-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir və həmin müddətin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Seçki qanunvericiliyinə görə, bələdiyyələrə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edilir. Respublikamızda 2014-cü ildə keçirilən seçkilərdə seçilmiş bələdiyyə üzvlərinin səlahiyyət müddəti başa çatmaq üzrədir. Bununla əlaqədar, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2019-cu il 18 oktyabr tarixli Qərarı ilə növbəti bələdiyyə seçkiləri 2019-cu ilin 23 dekabrına təyin edilib.

Bu sahədə görülən işlər belə deməyə əsas verir ki, keçiriləcək seçkilər bələdiyyə üzvlərinin keyfiyyət tərkibini daha da yaxşılaşdıracaq və bu da onların fəaliyyətinin növbəti illərdə də səmərəli olmasına xidmət edəcək, yerli özünüidarəetmənin daha da təkmilləşməsinə öz töhfəsini verəcəkdir. Buna nail olmaq üçün isə biz seçicilərin seçkilərdə mütəşəkkil iştirak edib, layiqli namizədə səs verməyimiz gərəkdir.

***– Maraqlı müsahibə üçün çox sağ olun.***

**Nail ƏSGƏROV**

---

## *"Azərbaycan vokalçıları" festivalı* çərçivəsində konsert olub

*Dekabrın 20-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Televiziyası "Mədəniyyət" kanalının yeni layihəsi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə ölkəmizdə ilk dəfə keçirilən "Azərbaycan vokalçıları" festivalının Naxçıvan turu çərçivəsində konsert təşkil olunub.*





Qeyd edək ki, Azərbaycanda təməli görkəmli müğənnimiz, Şərq və Qərb klassik oxuma və milli vokal üslubunu sintez edərək unikal bir sənət nümunəsi yaratmış Bülbül tərəfindən qoyulan vokal sənəti böyük inkişaf yolu keçib. Azərbaycan vokalçıları dünyanın böyük səhnələrində, mötəbər festival və müsabiqələrdə ölkəmizi layiqincə təmsil edirlər.

Bu gün qədim diyarımızda da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir, bunun nəticəsində muxtar respublika mədəniyyəti özünün yeni inkişaf dövrünü yaşayır. Bu yüksəlişin fonunda milli musiqi sənəti də inkişaf edir. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilib, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilib. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının və Aşıqlar Birliyinin fəaliyyəti təmin edilib. Muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür, yaradıcı kollektivlərin xarici ölkələrə qastrol səfərləri təşkil edilir. Görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə edib. Son illər 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib.

Naxçıvan Dövlət Universitetində və Naxçıvan Musiqi Kollecində vokal sənəti ixtisası üzrə kadrlar hazırlanır. Opera sənətinin inkişaf etdirilməsi, tələbələrin vokal musiqi formalarına daha dərindən yiyələnmələri məqsədilə Naxçıvan Dövlət Universitetində Tələbə Opera Studiyası da fəaliyyət göstərir. Həmin studiya hazırladığı operettalarla bir sıra xarici ölkələrdə qastrol səfərlərində olub.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin konserti olub. Orkestrin bədii rəhbəri və dirijoru Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundovdur. Konsertdə görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Tofiq Quliyevin, Fikrət Əmirovun, Niyazinin, Müslüm Maqomayevin, Asəf Zeynallının və Rauf Hacıyevin əsərlərindən parçalar ifa olunub. Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfovun, Gülyanaq Fərzəliyevanın, Mübariz Əsgərovun və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elçin Nağıyevin, həmçinin gənc ifaçılar Rahim Əsgərzadə və İlkin Abdullayevin çıxışları alqışlarla qarşılanıb.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

# 2019-cu ilin quruculuq ərməğanları



Dəstə kəndi



Ordubad rayonunun Dırnıs kəndində "Allahşükür məscidi"



Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binası



Gülşənabad kənd ümumi orta məktəbi



Heydərabad qəsəbəsində yeni yaşayış binası



Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası



Muğanlı kəndi




Türkeş kənd avtomobil yolu



"Saat Meydanı" turistik istirahət mərkəzi

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 869